# “Unibank”Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətinin Mükafatlandırma siyasətinin prinsipləri

“Unibank” Kommersiya Bankı” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra mətndə “Bank”) Mükafatlandırma Siyasəti risklərin idarə olunması siyasətinə müvafiq olaraq müəyyən edilir və Bankın strategiyasına əsaslanır.
Bankın Mükafatlandırma Siyasət aşağıdakı prinsiplər əsasında formalaşdırılır:

- **Uyğunluq** – qanunvericilik və Bankın strategiyası ilə ziddiyyət təşkil etməməsi;
- **Ədalətlilik** – dəqiq ölçülmüş meyarlar əsasında obyektiv qiymətləndirmə ilə əməkdaşın əməyinin ədalətli ödənişi. Ödənişlərinin müəyyən edilməsində hər hansı bir ayrıseçkiliyə yol verilməməsi. Mükafatlandırma sisteminin əmək bazarı səviyyəsinə uyğunluğu;
- **Həvəsləndirmə** – həm fərdi, həm də kollektiv əməyin stimullaşdırılmasına yönəlməsi;
- **Səmərəlilik** – mükafatlandırmadan alınan səmərənin Bank üçün stimullaşdırmaya yönəldilən xərclərdən çox olması;
- **Şəffaflıq –** mükafatlandırma siyasəti ilə bağlı məlumatların qanunvericiliyin tələblərinə uyğun olaraq açıqlanması;
- Bankın strateji hədəflərə nail olmasına yönəldilməsi;
- Bankın uzunmüddətli fəaliyyət nəticələrinə və mənfəətliliyinə əsaslanmaq;
- Bankın risk iştahasına adekvat olması və izafi risk qəbulunu məhdudlaşdırması;
- Bank tərəfindən üzərinə uzunmüddətli risklərin götürülməsi hesabına qısamüddətli dövrdə gəlir əldə etməsinə yönəlməməsi;
- Bankın əməkdaşına verilən mükafatın həcmi Bankın əməkdaş ilə bağlı əvvəlcədən müəyyən edilmiş və ölçüləbilən kəmiyyət, keyfiyyət və performans göstəricilərinin (məsələn, kreditlərin verilməsi ilə məşğul olan struktur bölmənin əməkdaşının iştirakı ilə verilən kreditlərin müddəti, kreditlərin verildiyi sektor, əməkdaşın iştirakı ilə verilən kredit portfelinin konsentrasiyası və portfel üzrə qeyri-işlək kreditlərin həcmi, borcalanın sektorda mövqeyi və s.) yerinə yetirilmə səviyyəsinə əsasən hər bir əməkdaşın birbaşa rəhbəri tərəfindən müəyyən edilməsi və ilin sonunda həmin göstəricilər üzrə əməkdaşların performansının qiymətləndirilməsi;
- Bankın təsdiq edilmiş Strategiyasında nəzərdə tutulan hədəflər üzrə performans və digər göstəricilərin müəyyən edilməsi;
- Bank əməkdaşları və idarəetmə orqanları üzvlərinin əməyinin ödənilməsinin mükafatlardan asılı olmaması;
- Banka uyğun bilik, bacarıq və təcrübəyə malik əməkdaşların işə cəlb edilməsi və işə cəlb olunmuş şəxslərin loyallığının təmin edilməsinə şərait yaradılması.